# İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı səfirinin rayonumuza səfəri



Martın 3-də İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Berlian Helmi Qəbələ rayonuna səfəri çərçivəsində rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevlə görüşmüşdür. Görüş zamanı RİH başçısı tərəfindən rayonun iqtisadi göstəriciləri, sosial və mədəni həyatı, rayonda yaradılan yeni istehsal müəssisələri, sənaye və turizm obyektləri, eləcə də rayonda keçirilən beynəlxalq tədbirlər barədə ətraflı məlumat verilmişdir. Qarşılıqlı səmimiyyət mühitində keçən görüşdə ikitərəfli münasibətlərin müxtəlif aspektləri dinlənilmiş, qarşılıqlı əlaqələrin inkişaf imkanlarının genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılmış, İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi tərəfindən Qəbələdə keçirilmiş görüşün iki ölkə arasında siyasi, iqtisadi və sosial-mədəni əlaqələrin daha da inkişaf etməsinə böyük töhvə verəcəyi bildirilmişdir. Sonda tərəflər arasında qarşılıqlı hədiyyələr təqdim olunmuş və Səfir Berlian Helmi səmimi qarşılandığına görə minnətdarlığını bildirmişdir.

# ”İdman Paytaxtı - 2026“-nın simvolik açarı Qazax şəhərinə təqdim edilib

Qazax şəhərində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin layihəsi əsasında



həyata keçirilən “Qazax - İdman Paytaxtı 2026”-nın açılış mərasimi keçirilmişdir. Tədbir iştirakçı-



ları öncə Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin və “Qarabağ



Azərbaycandır” abidələrini ziyarət edərək, önünə gül dəstələri düzmüşlər. Tədbirdə Azərbaycan Dövlət Himni səslənmiş, Ümummilli Lider Heydər Əliyevin və ərazi bütövlüyümüzün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Çıxış edən Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Gənclər və İdman Nazirliyinin layihəsi əsasında Qazax şəhərinin 2026-cı il üçün Azərbaycanın “İdman paytaxtı” elan edildiyini vurğulayaraq, bu böyük etimada görə başda Gənclər və İdman naziri olmaqla, zəhməti olan hər kəsə öz adından və rayon ictimaiyyəti adından dərin minnətdarlığını bildirmişdir. Gənclər və İdman naziri Fərid Qayıbov Azərbaycan Respublikasında Gənclər siyasətinin, gənclərə, idmana qayğının həmişə dövlətin diqqət mərkəzində saxlanıldığını qeyd edərək rayon sakinlərini, xüsusilə də idmançıları Qazağın İdman Paytaxtı seçilməsi münasibətilə təbrik etmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək 2025-ci il üçün Azərbaycanın “İdman paytaxtı” seçilmiş Qəbələdə il ərzində keçirilən tədbirlərdən, əldə edilən nailiyyətlərdən danışmış, Qazağın bu şərəfli işi layiqincə yerinə yetirəcəyinə əminliyini bildirərək bütün qazaxlıları qəbələlilər adından təbrik etmiş və “İdman Paytaxtı” layihəsinin simvolik açarını aidiyyəti üzrə təqdim etmişdir. Sonda konsert programında səslənən bir-birindən maraqlı musiqilər iştirakçılar tərəfindən böyük coşqu ilə qarşılanmışdır.

# Ramazan ayı - mənəvi saflaşma və mərhəmət ayı

Müqəddəs Ramazan ayı islam aləmində xüsusi yerə malikdir. Bu ay insanın yalnız fiziki deyil, eyni zamanda mənəvi cəhətdən saflaşmasına, özünü dərk etməsinə və allaha yaxınlaşmasına xidmət edir. Ramazan ayı Qurani-Kərimin nazil olmağa başladığı ay kimi tarixdə və dinimizdə mühüm əhəmiyyət kəsb edir.

Bu ayda müsəlmanlar sübh azanından gün batana qədər oruc tutur, nəfsini tərbiyə edir, pis vərdişlərdən uzaqlaşır. Oruclluq insanı səbrli olmağa, başqalarının dərdinə şərik çıxmağa və yardımlaşma hissini gücləndirməyə sövq edir. Xüsusilə, imkansız ailələrə yardım etmək, sədəqə vermək Ramazan ayının əsas xüsusiyyətlərindən biridir.

Ramazan ayının ən qiymətli gecələrindən biri olan Qədr gecəsi isə minaydan daha xeyirli hesab olunur. Bu gecədə edilən duaların, ibadətlərin savabı qat-qat artıqdır. İnsanlar bu gecəni ibadətlə keçirərək bağışlanma diləyir, gələcək həyatları üçün xeyir-dua edirlər.

Mütəxəssislər də bildirirlər ki, düzgün qaydada tutulmuş oruc in-



san sağlamlığına müsbət təsir göstərir. Bu zaman orqanizm istirahət edir, zərəli maddələrdən təmizlənir. Lakin imsak və iftar zamanı düzgün qidalanma mühüm şərtdir.

Ramazan ayı insanları birliyə, həmrəyliyə və mərhəmətə çağırır. Bu ayda qəlblər yumşalır, insanlar bir-birinə daha yaxın olur. Əslində Ramazan yalnız bir ay deyil, insanın həyat tərzini dəyişən, ona yeni dəyərlər qazandıran bir məktəbdir.

Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır.

Ay ili biri 29, digəri isə 30 gün sürən 12 aydan ibarətdir. Ay (qəməri) təqvimi də buradan yaranmışdır. Bu təqvimə əsasən ilin uzunluğu 354 gün sürür. Ikinci xəlifə Ömərin dövründə qərara alındı ki, tarixləri Məhəmməd peyğəmbərin (s.ə.s) Məkkədən Mədinəyə hicrəti ilindən hesablasınlar. Beləliklə, Məhərrəm ayı ilə başlanan hicri-qəməri təqvimi yarandı. Bütün müsəlman ibadətlərinin, bayram və mərasimlərinin vaxtı bu təqvimə əsasən müəyyən edilir. Ay təqvimi Günəş təqvimindən 10-11 gün qısa olduğu üçün hər bir müsəlman ibadətinin tarixi işlətdiyimiz Günəş təqviminə nisbətən 10-11 gün irəli keçir.

Ay təqvimində də tarixlər sabitdir, bu tarixlər yalnız Günəş təqviminə nisbətən yerini dəyişir. Bizim Günəş təqviminə alışmış şüurumuz haradasa qeyri-müəyyənlik görür. İslam bayram və ayinlərinin müxtəlif fəsillərə təsadüf etməsində isə ilahi bir hikmət vardır.

Ramazan ayı oruclıq, insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, iman və iradənin saflaşması dövrüdür. İnsan bu ayın dua və ibadətləri ilə

(Ardı 5-ci səhifədə).

# Azərbaycançiliq ənənələrini yaşatmaliyiq

**Əgər bir xalq mövcuddursa, onun mütləq bir tarixi vardır. Bu tarixdə isə ona aid olan məxsusi vərdişlər, milliliyini əks etdirən adət və ənənələr onun varlığının özülü, əsasıdır. Xalqımızın zəngin olan adət-ənənələrindən biri də toy, xeyir məclislərinə aiddir. Bununla bağlı Hacallı Kənd Ağsaqqallar Şurasının Sədri Şahid Rəsulovla söhbət aparmış, bir ağsaqqal kimi onun fikirlərini öyrənmişik.**

**Şahid Fətullah oğlu Rəsulov 1945-ci ildə Hacallı kəndində doğulmuş, 1952 - 1963-cü illərdə (o zaman orta təhsil onbirillik olmuşdur) orta təhsil almış, Göyçay Tibb Kollecində iki il yarım oxumuş və tibb qardaşı (feldşer) ixtisasına yiyələnmişdir. Təhsilini başa vurduqdan sonra Nic konserv zavodu nəzdində tibb işçisi, sonra Nic xəstəxanasında, Həmzəli kəndində öz ixtisasına uyğun işləmişdir. 27 yaşında ordu sıralarında (1967 - 1969) qulluq etmişdir. Ukrayna Respublikasında,**



**Yalta və Saxalin adasında əsgəri xidmətdə olan Şahid Rəsulov xidmətdə olduğu müddətdə də ixtisasına uyğun xidmət etmişdir. Şahid Rəsulov həmçinin Qəbələ GEM-də və Hacıalılı kəndində də öz peşəsi üzrə əmək fəaliyyətini davam etdirmişdir. Ailəlidir, ömür-gün yoldaşı Xavər xanım uzun müddət müəllim işləmişdir. 4 övladları, 10 nəvələri vardır. Toy adət-ənənələrimizlə bağlı onunla olan müsahibəmizi oxucularımıza təqdim edirik.**

***- Şahid həkim, bir el ağsaqqalı kimi adət-ənənələr haqda nə deyə bilərsiniz?***

- Adət-ənənə bir cəmiyyət içərisində müəyyən keçmişə sahib olan simvolik və ya xüsusi əhəmiyyət kəsb edən nəsildən nəslə ötürülərək mədəni vərdişlər, davranış və inanc toplusudur. Adət-ənənələr bütün vərdişlərə aid edilməz. Nəsildən nəslə ötürülərək yaşayan adətlər müqəddəsləşər və xalqın mövcudluğuna aid olaraq sınaqlardan keçər. Həmçinin hər zamanla da qismən dəyişilsə belə mövcudluğunu itirməz. Bu toy adət-ənənələrimizə daha uyğundur.

***- Əvvəlki toy-adətləri, ənənələrində millilik xüsusiyyətləri daha çox hiss olunurdu. 4 övlad toyu etmiş və ətraf mühitdə bu ənənələrin canlı şahidi kimi bu haqda söhbətlərinizi dinləmək istərdik.***

(Ardı 8-ci səhifədə).

# Heydər Əliyev və Azərbaycanda dövlət qadın siyasəti

Qəbələ rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə "Heydər Əliyev və Azərbaycanda dövlət qadın siyasəti" adlı tədbir keçirilib. Çıxışlarda Azərbaycan qadınının cəmiyyətdəki yeri və rolundan, vətənimizin inkişafına, dövlət quruculuğuna verdiyi böyük töhfələrdən, bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması və yaşadılmasında müstəsna xidmətlərindən bəhs edilib, Azərbaycanda qadınların hüquqlarının qorunması, onların ictimai fəallığının təşkili məsələsinin Ulu Öndər Heydər Əliyev tərəfindən hər zaman diqqət mərkəzində saxlanıldığı vurğulanıb. Sonda mövzu ilə bağlı videoçarx nümayiş olunub.